AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-ci İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 08 İYUL 2021-ci il / № 25 (1243)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU

# Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb

**İyulun 7-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzalayıb.**

Fərmanda qeyd olunur ki, ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişib, regionların iqtisadi potensialı artıb, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşıb, əhalinin rifah halı yüksəlib. Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirib və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaradıb.

**Sənəddə vurğulanır ki, hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.**

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.



Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə-Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir.

**Fərmana əsasən, Azərbaycan Respublikasının iqtisadi rayonlarının bölgüsü aşağıdakı kimi təsdiqlənib:**

*- Bakı iqtisadi rayonu (Bakı şəhəri);*

*- Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları);*

*- Abşeron-Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları);*

*- Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları);*

*- Gəncə-Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları);*

*- Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);*

*- Qazax-Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları);*

*- Quba-Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları);*

*- Lənkəran-Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları);*

*- Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları);*

*- Mil-Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları);*

*- Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları);*

*- Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları);*

*- Şirvan-Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları).*

## Azərbaycana 250 milyon dollar məbləğində kredit ayrılıb




**"Asiya İnkişaf Bankı (AİB) koronavirus pandemiyasının tibbi, sosial və iqtisadi fəsadlarının yumşaldılması üzrə kompleks planın reallaşdırılmasına dəstək məqsədilə Azərbaycana 250 milyon dollar məbləğində kreditin ayrılmasına razılıq verib".**

Bunu AİB-in prezidenti Masatsuqu Asakava deyib.

Onun sözlərinə görə, COVID-19 pandemiyasının fəsadları Azərbaycanın iqtisadiyyatın inkişafı və yoxsulluğun azaldılması sahəsində əldə etdiyi nailiyyətləri heçə endirə bilər:

**"AİB əvvəlki kimi Azərbaycana dəstək göstərməyə hazırdır və bu proqram hökumətə pandemiya ilə mübarizə üzrə tədbirləri davam etdirməyə, əhalinin həssas təbəqəsinin müdafiəsinə və iqtisadiyyatın bərpasının əsasını qoymağa imkan verəcək".**

Bank prezidenti bildirib ki, pandemiya dövründə məhdudiyyətlər ticarətin, turizmin, pul köçürmələrinin və istehlakçı tələbinin azalmasına gətirib çıxarıb, bununla yanaşı isə qlobal iqtisadi azalma ilə əlaqədar neft gəlirləri azalıb:

**"Bankın COVID-19-a çevik reaksiyası və xərclərin dəstəklənməsi üzrə proqramı səhiyyə, sosial müdafiə və makroiqtisadi sabitlik sahələrində hökumətin cari işlərinə büdcə dəstəyini təmin edəcək".**

## Səttar Möhbalıyev:



### "Azərbaycanda bu gün xarici investorlar üçün son dərəcə əlverişli mühit formalaşıb"

BAX SƏHİFƏ: 2

## Yeni kollektiv saziş imzalanıb

BAX SƏHİFƏ: 2

## "Gənclərin ixtisaslı kadr kimi yetişməsi qayğısına qalırıq"

BAX SƏHİFƏ: 3

## "Tərəfdaşlarımızın xidmətlərini dəyərləndirmək də missiyamızın tərkib hissəsidir"

BAX SƏHİFƏ: 3

## "Təcrübəçi layihəsi" özünü doğruldur

BAX SƏHİFƏ: 4

## Koronavirus infeksiyasına 127 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 54 nəfər müalicə olunaraq sağalıb,127 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, son sutkada koronavirus infeksiyasından 1 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 336 min 684 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 330 min 567 nəfər müalicə olunaraq sağalıb, 4979 nəfər vəfat edib. Aktiv xəstə sayı 1138 nəfərdir.

**Ötən müddət ərzində 3 milyon 813 min 17 test aparılıb. Bugünkü test sayı isə 10025-dir.**




BAX SƏHİFƏ: 4

## Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

Beynəlxalq

## Qlobal hüquq indeksi: göstəricilər məyusedicidir

BAX SƏHİFƏ: 3

## "Delta" ştammı daha yoluxucudur

BAX SƏHİFƏ: 4



# Səttar Möhbalıyev:
# “Azərbaycanda bu gün xarici investorlar üçün son dərəcə cəlbedici mühit formalaşıb”

**“Dünən biz hamımız ölkənin ictimai-siyasi həyatında baş vermiş növbəti çox mühüm əhəmiyyət kəsb edən bir hadisənin şahidi olduq. Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlini qoydu. Əlbəttə ki, bu önəmli hadisə mahiyyət etibarilə iqtisadi xarakter daşıyır. Lakin eyni zamanda da Ələt Azad İqtisadi Zonasının yaradılması Azərbaycanın növbəti uğurlara doğru inamlı irəliləyişini bütün dünyaya bir daha nümayiş etdirməklə həm də siyasi məna kəsb edir. Təməlqoyma mərasimindən sonra Azərbaycan Televiziyasına müsahibə verən dövlət başçısı da bu məqamı xüsusi vurğulayaraq belə demişdir: “Bu zonanın yaradılması ideyasının təməlində bizim siyasətimiz dayanır.” Həqiqətən də birmənalı olaraq demək lazımdır ki, bu gün Azərbaycanın istənilən bir sahədə əldə etdiyi bütün uğur və nailiyyətlərinin əsasında ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, praqmatik siyasət dayanır.”**

*Bu fikirləri Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev deyib.*

Millət vəkili bildirib ki, Azərbaycanda qeyri-neft sektoruna qoyulan xarici sərmayələrin xüsusi çəkisinin artırılması baxımından Ələt Azad İqtisadi Zonasının yaradılması çox böyük əhəmiyyət kəsb edir. Səttar Möhbalıyevin sözlərinə görə, bu zonanın yaradılması qeyri-neft sektorunun inkişafına güclü təkan verəcək: “Bu gün Azərbaycanda qeyri-neft sektorunun inkişafı və birbaşa dövlət sərmayəsi, ya da yerli şirkətlərin yatırdıqları sərmayə hesabına baş verir. Ölkə Prezidenti də öz müsahibəsində qeyd etdi ki, xarici şirkətlər daha çox enerji sektoruna sərmayə qoymağa meyillidirlər. Məhz buna görə Azad İqtisadi Zonanın yaradılması, sözsüz ki, iqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafına xidmət göstərəcəkdir. Digər tərəfdən isə, Azad İqtisadi Zonanın yaradılması ideyasını verməklə dövlətimizin başçısı, hər zaman olduğu kimi, vətəndaşların rifah yüksəlişinin təmin olunması məsələsini də düşünmüşdür. Belə ki, bu zonada yaradılacaq infrastruktur investorlar üçün cəlbedici olacaq, ölkəmizə yeni texnologiyalar gələcək, yeni iş yerləri yaradılacaq və burada işləyəcək Azərbaycan vətəndaşlarının əməkhaqqı yüksək olacaq. Həmçinin rəqabətqabiliyyətli məhsul istehsalının artması ilə qeyri-neft sektorunun ixrac imkanları da genişlənəcək. İdeyanın əsasında duran məqsədlərdən biri də Ələt qəsəbəsinin və ətraf ərazilərin inkişafına yeni dinamika gətirməkdən ibarətdir. Belə ki, Ələt qəsəbəsinin ərazisində böyük boş torpaq sahələri var və bu torpaq sahələrinin mütləq əksəriyyəti kənd təsərrüfatı üçün yararsız torpaqlardır. Azad İqtisadi Zona tədricən formalaşdıqca, bu, bölgənin inkişafını sürətləndirəcək. Öz növbəsində bölgənin inkişaf dinamikası iqtisadiyyatımızın ümumi inkişafına böyük müsbət təsir göstərəcək.”

**Daha sonra Səttar Möhbalıyev qeyd edib ki, Azərbaycan bu gün dünyanın ən təhlükəsiz və ən stabil ölkələrindən biri kimi də xarici investorlar üçün kifayət qədər cəlbedicidir: “Azərbaycan Vətən müharibəsində əldə etdiyi tarixi Qələbə ilə eyni zamanda həm öz ərazi bütövlüyünü təmin etdi, həm də Dağlıq Qarabağ münaqişəsinə son qoymaqla regionda sabitlik yaratdı. Təbii ki, ən kiçik hərbi münaqişə ehtimalı belə istənilən bölgədən xarici investorların çıxıb getməsi üçün yetərli ola bilər. Hətta bütün digər iqtisadi və maliyyə şərtləri nə qədər cəlbedici olsa belə, investisiyanın təhlükəsizliyinin təminatı ən önəmli məsələlərdən biridir. Məhz bu baxımdan da Azərbaycanı bu gün bütün dünya etibarlı tərəfdaş kimi tanıyır. Azərbaycan öz gücünü, ordusunun qüdrətini Vətən müharibəsinin gedişində göstərdi və artıq bu xüsusda xarici sərmayəçiləri narahat edəcək heç bir məqam yoxdur. Digər tərəfdən, ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlik də hər bir investor üçün əsas şərtlərdən biridir. Məsələ bundadır ki, investisiyaların təhlükəsizliyinin təminatı üçün təkcə ölkələrarası hərbi münaqişələrin istisna edilməsi kifayət deyil. İnvestisiya qoyulduqları ölkədaxili destabillik səbəbilə də itirilmə riskinə düşə bilərlər. Buna görə də sabitlik olmayan ölkələrə heç bir şirkət sərmayə qoymur. Məhz bu baxımdan da Azərbaycanda bu gün xarici investorlar üçün son dərəcə cəlbedici mühit formalaşıb. Bu gün ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlik, xalq-iqtidar birliyi dünyanın heç bir ölkəsində müşahidə olunmur. Ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən milli həmrəylik siyasəti və bu zəmində formalaşmış və son dövrlərdə daha da güclənmiş milli birlik Vətən müharibəsində Azərbaycanın parlaq Qələbəsini təmin edən əsas amillərdən və bu həqiqəti artıq bütün dünya bilir. Möhtərəm Prezidentimizin dediyi kimi, bütün bu amillər və əlbəttə ki, İkinci Qarabağ müharibəsində qazandığımız Qələbə və Dağlıq Qarabağ münaqişəsinin həlli artıq yeni bir vəziyyət yaradıb. Regionda uzunmüddətli sülh və sabitliyin bərqərar olması, eləcə də bu sülhün ən etibarlı qarantının da məhz Azərbaycan olduğu artıq investorlar üçün də gün kimi aydın məsələdir. Bütün bu amillərin mövcudluğu, əlbəttə ki, xarici sərmayədarları Ələt Azad İqtisadi Zonasına cəlb edəcək və bu möhtəşəm layihə Azərbaycanın iqtisadi inkişafına böyük töhfələr verəcək”.**

# Yeni kollektiv saziş imzalanıb





**İyulun 5-də Təhsil Nazirliyi ilə Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi arasında 2021-2023-cü illər üçün kollektiv saziş imzalanıb.**

Saziş təhsil sahəsinin sosial-iqtisadi inkişafı istiqamətlərini, peşə qrupları, təhsil işçiləri üçün əmək şəraiti, əməkhaqqını, sosial təminatları və əlavə imtiyazları müəyyən etmək məqsədi daşıyır.

Sənəddə təhsil işçilərinin və təhsil alanların əmək, sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsi sahəsində tərəflərin birgə götürdükləri öhdəliklərdə əsas diqqət təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsinə, müasir tələblər səviyyəsində inkişafına yönəldilir. Bununla yanaşı, qeyd olunub ki, təhsil müəssisələrinin hüquqi-normativ bazasının təkmilləşdirilməsi, sosial əhəmiyyətli məsələlərin həllində əməkdaşlıq ediləcək. Təhsil işçilərinin sosial statusunun yüksəldilməsi, nüfuzunun artırılması, əməyinin lazımı səviyyədə qiymətləndirilməsi, əməkhaqqının bazarın tələblərinə uyğun müəyyənləşdirilməsi ilə əlaqədar təkliflər birgə hazırlanıb dövlət orqanlarına təqdim ediləcək. Qabaqcıl pedaqoji işçilərin iş təcrübəsi öyrənilib yayılacaq. Yerlərdə müntəzəm olaraq seminarlar keçiriləcək. Ali və orta ixtisas təhsili məktəblərində əmək yarmarkalarının təşkilinə səy göstəriləcək.

**Sənəddə həmçinin tərəflər məktəbyaşlı uşaqların təhsildən yayınması hallarının qarşısının alınması üçün icra hakimiyyəti, həmkarlar ittifaqı və təhsil ocaqlarının nümayəndələrindən ibarət komissiya yaratmağı və onun işinə ciddi nəzarəti həyata keçirməyi öhdələrinə götürüblər.**

Kollektiv sazişdə işçilərin sayı azaldılarkən və ya ştatların ixtisarı həyata keçirilərkən işdən azad olunan işçilərin digər təhsil müəssisələrində işlə təmin edilməsinə yardım göstərilməsi, ixtisar zamanı yaşa görə pensiyaya çıxmasına bir il qalanlar, uşaqları anadangəlmə və ya körpəlikdən əlil olan valideynlərin nəzərə alınması kimi öhdəliklər də öz əksini tapmışdır.

**Sənədə əsasən, üzv təşkilatların hüquqi-normativ sənədlərlə təmin edilməsi, yaranmış fərdi və kollektiv əmək mübahisələrinin həllində təşkilat üzvlərinə əməli kömək göstərilməsi, tələbə həmkarlar ittifaqı komitələrinin təqdimatı əsasında təhsildə, kollektivin ictimai həyatında fərqlənən tələbələrə adlı təqaüdlərin verilməsi, əmək münasibətləri, əməkhaqqı, əmək normaları, iş və istirahət vaxtı, əməyin mühafizəsi, mədəni-kütləvi və idman işləri, işçilərin sağlamlığının mühafizəsi və sair məsələlərlə bağlı da öhdəliklər qeyd olunub.**

# Namizədliyi yekdilliklə dəstəkləndi

**Müdafiə Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin (HİRK) Məclisi keçirilib.**

Məclisdə təşkilati məsələ müzakirə olunub.

Müdafiə Sənayesi İşçiləri HİRK-in sədri Rüfət Müfid-Zadənin ərizəsi nəzərə alınaraq tutduğu vəzifədən azad edilib. Məclis üzvlərinin yekdil qərarı ilə həmin vəzifəyə Seymur Nazim oğlu Mahmudov seçilib.

İyunun 30-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, millət vəkili Səttar Möhbalıyev Müdafiə Sənayesi İşçiləri Həmkarlar İttifaqı Rəyasət Heyətinin və Məclisinin bir qrup üzvü ilə görüşüb və çıxış edib.

**AHİK sədri həmkarlar ittifaqı qarşısında duran əsas vəzifələr, işçilərin sosial-iqtisadi hüquqlarının müdafiəsi və sosial problemlərinin həlli ilə bağlı Məclis üzvlərinə tövsiyələr verib.**

# Yubiley döş nişanları təqdim olundu

**Azərbaycan Texniki Universitetinin (AzTU) rektoru Vilayət Vəliyev Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının (ATİAHİ) yaradılmasının 100 illiyi ilə əlaqədar həmkarlar ittifaqı hərəkatında xidmətlərinə görə “Yubiley döş nişanı” ilə təltif olunub. Rektor bu mükafata ATİAHİ Respublika Komitəsinin Rəyasət Heyətinin qərarı ilə layiq görülüb.**



“Yubiley döş nişanı”nı rektor Vilayət Vəliyevə ATİAHİ Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə təqdim edib.

M. Cəfərzadə həmkarlar ittifaqı hərəkatına göstərdiyi dəstəyə və xidmətlərinə görə rektor V. Vəliyevə təşəkkür edib, ATİAHİ ilə AzTU-nun əməkdaşlığının gələcəkdə də inkişaf edəcəyinə əmin olduğunu söyləyib.

Rektor Vilayət Vəliyev ona göstərilən etimada və diqqətə görə ATİAHİ Respublika Komitəsinin rəhbərliyinə minnətdarlığını bildirib.

**Eyni zamanda tədbirdə Beynəlxalq Avrasiya Təhsil İşçiləri Həmkarlar İttifaqları Birliyinin yaranması və inkişafındakı xidmətlərinə görə AzTU-nun Elm və innovasiya üzrə prorektoru Çetin Elmasa da xatirə hədiyyəsi təqdim olunub.**



**Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (TİAHİ) Respublika Komitəsinin nümayəndələri ilə görüşüb.**

Görüşdə Respublika Komitəsi sədrinin müavini Mirzə Cəfərzadə Azərbaycan Həmkarlar İttifaqları və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının keçdiyi tarixi inkişaf yolundan, həmkarlar ittifaqı üzvlərinin gördüyü işlərdən, təşkilatın beynəlxalq əlaqələrindən danışıb.

Rektor Aqrar Universitet və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi arasında əməkdaşlıq münasibətlərinin gələcəkdə daha da inkişaf etdiriləcəyini bildirib.

**Görüşün sonunda İbrahim Cəfərova Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının “ATİAHİ 100 il” Yubiley döş nişanı təqdim olunub.**

***

Daha bir görüş Gəncə Dövlət Universitetində olub. Universitetin rektoru, kimya elmləri doktoru, professor Yusif Yusibov Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının “ATİAHİ 100 il” yubiley döş nişanı ilə təltif olunub.

**Rektor ona göstərilən etimada və diqqətə görə Respublika Komitəsinin rəhbərliyinə minnətdarlığını bildirib.**

# AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə

***Hörmətli Səttar müəllim!***

**Mayın 19-dan iyunun 2-dək “Şıx” sanatoriyasında aldığım müalicənin sağlamlığımın bərpasında son dərəcə böyük köməyi oldu. Təbii prosedur və müalicələri həyata keçirən sanatoriyanın tibbi heyətinə, xidmətçi personalına təşəkkür etməyimi özümün vətəndaşlıq vorcu sayıram. Çox istərdim ki, AHİK-in rəhbərliyi adlarını qeyd etdiyim cəfakeş tibb işçilərinin timsalında onların əməyini yüksək qiymətləndirsin. Həkim Sevinc Abbasovaya, tibb işçilərindən Qala Şapavalovaya, Tamella Məmmədovaya, Zeynəb Kamenskiyə, Gülxarə, Güləbətin, Xədicə və digər xanımlara, təmizləyicilərə, yeməkxana personalına, qeydiyyat şöbəsinə öz dərin təşəkkürümü bildirirəm.**

Mehriban, gülərüz insanların nümunəvi xidməti “Şıx” sanatoriyasına üz tutan hər kəs üçün ən yaxşı məlhəmdir.

**Təbii ki, bu sadalananlar Sizin qayğıkeşliyinizdən, diqqətinizdən və prinsipiallığınızdan qaynaqlanır. Bütün bunlara görə çox sağ olun, Səttar müəllim!**

Sizə cansağlığı, işinizdə uğurlar arzulayıram.

**Yusif ƏLƏKBƏROV,**
**Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü,**
**“Qızıl qələm” mükafatı laureatı.**
**Mingəçevir şəhəri, H.Əliyev pr. 49, mənzil 17**

# Gədəbəy Rayon Komitəsinə yeni sədr seçilib

**Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (TİAHİ) Gədəbəy Rayon Komitəsinin növbədənkənar iclası keçirilmişdir. İclasda təşkilati məsələyə baxılmışdır. Zakir Məhərrəm oğlu Orucov TİAHİ Gədəbəy Rayon Komitəsinin sədri seçilmişdir.**

Növbədənkənar komitə iclasında Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə çıxış etmişdir.

# "Gənclərin ixtisaslı kadr kimi yetişməsi qayğısına qalırıq"



**İyunun 30-da Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında" İlin peşəkar gənci" fəxri adının verilməsi mərasimi təşkil olunub.**

Tədbiri giriş sözü ilə Şuranın sədri Anar İbrahimov açaraq bildirib ki, AHİK-in İcraiyyə Komitəsinin qərarına əsasən, hər il müxtəlif sahələrdə çalışan gənclər arasında təcrübə mübadiləsinin aparılması, yaradıcılıq potensiallarının inkişaf etdirilməsi, peşəkarlıq səviyyəsinin artırılması, həmkarlar ittifaqı üzvlüyünə motivasiyanın gücləndirilməsi məqsədilə "İlin peşəkar gənci" fəxri adı uğrunda müsabiqə keçirilir. Bu müsabiqədə naxçıvanlı gənclər də fəal iştirak edirlər. 2020-ci ildə Muxtar Respublikadan müsabiqəyə qoşulmuş 3 gənc - Dilarə Baxşəliyeva (Naxçıvan Muxtar Respublika Xəstəxanası publik hüquqi şəxsin Pulmonologiya şöbəsində həkim-pulmonoloq), Təbrizə Bağırova (Naxçıvan Dövlət Universitetində Tələbə Elmi Cəmiyyətinin sədri), Tərmenxan Babayev (Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Ağır Atletika ixtisası üzrə II kurs tələbəsi, Şərur rayon Ağır Atletika İdman Klubunun idmançısı) qaliblər sırasında olmuşdur.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov da iştirak etmişdir. Nazir Azad Cabbarov bildirmişdir ki, Ulu Öndər ötən əsrin 70-ci illərindən sağlam gənc nəslin yetişdirilməsini diqqət mərkəzində saxlamış, onların hərtərəfli təhsil alması, milli ruhda tərbiyələnməsi və ixtisaslı kadr kimi yetişməsi qayğısına qalmışdır.

Ölkəmiz müstəqillik qazandıqdan sonra Azərbaycanda dövlət gənclər siyasəti yeni mərhələyə çıxarılmış, 1994-cü ildən ölkəmizdə Gənclər və İdman Nazirliyi yaradılmış, 1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin Birinci Forumu keçirilmiş, 2002-ci ildə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

**Təltif olunan gənclər həmkarlar ittifaqının əməklərinə verdiyi qiyməti yüksək dəyərləndirmiş, bu təşkilatın işində, təbliğində daha əzmlə çalışacaqlarını bildirmişlər.**

# Müdiriyyət - işçi münasibətlərinin tənzimlənməsində

## həmkarlar ittifaqının peşəkarcasına oynadığı rol müəssisənin iqtisadi göstəricilərinə də mühüm təsir etmişdir

**"Kənd-Qida-İş" Həmkarlar İttifaqı Federasiyasının sədri Tofiq Quliyev qida sektorunda yüksək xidmətləri ilə tanınan "Azərsun Holding" Şirkətlər Qrupuna daxil olan "Bakı Qida və Yağ Fabriki"nin Həmkarlar İttifaqı Komitəsinin sədri Elnur Məmmədova "Azərbaycan Həmkarlar İttifaqları - 115 il" yubiley döş nişanını təqdim etmişdir. Şirkət işçilərinin əmək, sosial problemlərinin həlli, tərəfdaşlar arasında sıx əməkdaşlıq mühitinin yaradılması sahəsində gördüyü səmərəli işlərə görə E.Məmmədova təşəkkürünü bildirmişdir. E.Məmmədov Yubiley döş nişanı ilə təltif edilməsini böyük etimad kimi dəyərləndirmişdir.**



Demişdir ki, müdiriyyət - işçi münasibətlərinin tənzimlənməsində həmkarlar ittifaqının peşəkarcasına oynadığı rol müəssisənin iqtisadi göstəricilərinə də mühüm təsir etmişdir. Xüsusilə məhsulların keyfiyyəti dünya və yerli bazarlarda şöhrət qazanmışdır.

İstehsalın inkişafı işçilərin rifah halının get-gedə daha da yaxşılaşmasına imkan verir.

**Sonda Tofiq müəllim HİK sədrinə və kollektivə növbəti uğurlar arzulamışdır.**

# "Tərəfdaşlarımızın xidmətlərini

## dəyərləndirmək də missiyamızın tərkib hissəsidir"



**"Həmkarlar ittifaqı təkcə işçilərin əmək və sosial hüquqlarını qorumaqla kifayətlənmir, həm də bu sahədə nümunəvi olan tərəfdaşlarının xidmətlərini dəyərləndirməyi də missiyasının tərkib hissəsi bilir".**

Bu sözləri "Xidmət-İş" Həmkarlar İttifaqları Federasiyasının vitse-prezidenti Xəyyam Nəsibov "Azpetrol Ltd" MMC-nin baş direktoru Ceyhun Məmmədova "Azərbaycan Həmkarlar İttifaqları - 115 il" Yubiley döş nişanını təqdim edərkən dedi. Bildirdi ki, apardığımız uzun müşahidələr göstərdi ki, sizin MMC-də çalışan hər bir kəs müdiriyyətin qayğısı ilə əhatə olunub. İş şəraiti müasir tələblər səviyyəsində qurulub. İşçilər fərdi mühafizə geyimləri ilə təmin edilib. Həmkarlar ittifaqı - müdiriyyət sıx əməkdaşlıq şəraitində işləyir. Bütün bunlar, təbii ki, diqqətimizdən kənarda qala bilməzdi.

Xəyyam müəllim döş nişanını və qiymətli hədiyyələri təqdim etdikdən sonra dedi ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyev sizə salamlarını və təbriklərini çatdırmağı tapşırmışdı. O, sizə həm istehsal göstəricilərinin artırılması, həm də işçilərin rifah halının daha da yaxşılaşdırılması istiqamətində göstərdiyiniz fəaliyyətinizdə növbəti uğurlar arzulayır.



**C.Məmmədov verilən dəyərli qiymətə görə şəxsən S.Möhbalıyevə təşəkkürünü çatdırılmasını xahiş etdi.**

Beynəlxalq

# Qlobal hüquq indeksi: göstəricilər məyusedicidir




**Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) 2021-ci il Qlobal hüquq indeksi hökumətlərin və işəgötürənlərin iş yerlərində virusun yayılması, kollektiv danışıqların aparılması hüquqlarının pozulması, çalışanlara nəzarətin gücləndirilməsi, sərbəst toplaşmaq və söz azadlığının məhdudlaşdırılması ilə bağlı mühüm məlumatlar vermiş işçilərin işdən azad edilməsi məqsədilə pandemiyadan necə istifadə etdiyini sənədləşdirir:**

*-Belarus, Kolumbiya, Kamboca və Myanmada həmkarlar ittifaqının fəaliyyətinə məhdudiyyətlərin artırılması ilə iş yerləri daha az təhlükəsiz olur;*

*-işçilərin izlənməsi artmaqdadır və "Amazon"un anbarlara nəzarəti qlobal bir qalmaqala çevrilir;*

*-Honduras, Hindistan, İndoneziya, Slovakiya və Uruqvayda hökumətlərin repressiv qanunlar qəbul etməsi ilə səbəbindən hüquqlar pozulur.*

BHİK-in Baş katibi Şaran Barrou bildirib ki, COVID-19 pandemiyası iş yerlərini, cəmiyyəti viran qoydu. Qlobal hüquq indeksi iqtisadiyyatın və icmaların fəaliyyətini təmin etmək üçün ön cəbhədə dayanaraq mühüm işlər görən işçilər qarşısında həmkarlar ittifaqına qarşı təbliğat aparan hökumətlərin və şirkətlərin utancverici çağırışını ortaya qoyur. COVID-19-a qarşı mübarizə bəhrəsini verdikdə, kimin qəhrəman olduğunu öyrəndik. İşçilər hər yerdə xəstələrə qulluq edir, masalarımıza yemək qoyur və iqtisadiyyatı dəstəkləyirdilər. Lakin bütün bunlara baxmayaraq, işçilər əvvəllər heç vaxt olmadığı kimi hücumlara məruz qalırlar.

**Hökumətlər və işəgötürənlər pandemiyadan dünyanın asılı olduğu insanların istismarına, izlənməni gücləndirməyə, sazişləri pozmağa, işçiləri işdən azad etməyə, həmkarlar ittifaqlarına manee törətməyə və qorxutmağa, zorakılığa və qətllərə əl atmaq üçün istifadə edirdilər. Zimbabvedə həmkarlar ittifaqları işçilərin pandemiyaya görə ödənilməmiş müavinətlərin təmin olunması üçün tətil etdikdən sonra məhkəmə təqibinə məruz qaldılar. Həmçinin Peruda "Falabella" beynəlxalq pərakəndə ticarət evi koronavirusdan sağlamlıq və təhlükəsizliklərinin qorunmasını tələb edən 22 işçisini işdən çıxardı.**

2021-ci il demokratiyanın yeni hücuma məruz qaldığı ildir, çünki həmkarlar ittifaqlarının qeydiyyatına mane olan ölkələrin sayı 109-a (2020-ci ildə 89), söz və sərbəst toplaşmaq azadlığının ləğv edildiyi və ya məhdudlaşdırıldığı ölkələrin sayı isə 64-ə (2020-ci ildə 56) qədər artmışdır.

**Belçika, Kanada, Salvador, Haiti, Macarıstan, İordaniya, Malayziya, Myanma və Slovakiyanın reytinqləri 2021-ci ildə pisləşib.**

Kamboca, Honqkonq və Myanmadan olan həmkarlar ittifaqı liderləri ən çox həbslərə məruz qalanlar arasında idi. Bir sıra ölkələrin qanunvericiliyində bəzi müsbət dəyişikliklər olmasına baxmayaraq, daha çox işlər görülməlidir.

Hökumətlər və bəzi şirkətlər tərəfindən dağıdılmış etimadı bərpa etmək üçün, iş yerləri, hüquqlar, sosial müdafiə, bərabərlik daxil olmaqla, yeni ictimai müqavilə lazımdır.

**Yaxın Şərq və Şimali Afrika davamlı olaraq səkkiz ildir ki, işləyən insanlar üçün dünyanın ən pis bölgəsidir. Liviyada, Fələstində, Suriyada və Yəməndə hələ də münaqişə davam edir və bu ölkələrdə əsas azadlıqlar və hüquqlar tapdalanır.**

2021-ci ildə ən pis göstərici olan ölkələr Banqladeş, Belarus, Braziliya, Kolumbiya, Misir, Honduras, Myanma, Filippin və Zimbabvedir.

**BHİK-in Qlobal hüquq indeksinin sayca səkkizinci nəşri 149 ölkəni işçilərin hüquqlarına hörmət dərəcəsinə görə qiymətləndirir. Əsas nəticələr bunlardır:**

*-ölkələrin 87 faizində tətil hüququ pozulub;*
*-ölkələrin 79 faizində kollektiv danışıqlar aparmaq hüququ pozulub;*
*-ölkələrin 74 faizində işçilər həmkarlar ittifaqlarını yaratmaq və onlara daxil olmaq hüququndan məhrum olunub;*
*-həmkarlar ittifaqlarının qeydiyyatına mane olan ölkələrin sayı 2021-ci ildə 109-a qədər artıb;*
*-işçilər üçün ən pis onluğa daha iki ölkə (Belarus və Myanma) daxil oldu;*
*-söz azadlığını inkar edən və ya məhdudlaşdıran ölkələrin sayı 2021-ci ildə 64-ə qədər artıb;*
*-45 ölkədə işçilər zorakılığa məruz qalıblar;*
*-ölkələrin 65 faizində işçilərin ədalət mühakiməsinə çıxışı yoxdur və ya məhdud giriş imkanı var;*
*-68 ölkədə işçilər həbsə məruz qalıblar;*
*-həmkarlar ittifaqları nümayəndələri altı ölkədə-Braziliya, Kolumbiya, Qvatemala, Myanma, Nigeriya və Filippində öldürülüblər.*

**Azər MUSTAFAYEV**

# Azad olunmuş ərazilər, yeni imkanlar

**"İnşaat-İş" Həmkarlar İttifaqında "Kollektiv müqavilə və sazişlərin həmkarlar İttifaqlarının fəaliyyətində rolu" mövzusunda seminar keçirilib. Beynəlxalq Həmkarlar İttifaqı Təşkilatının (BWI) dəstəyi ilə baş tutan seminarı giriş sözü ilə sahə həmkarlar ittifaqının sədri Umud Hüseynov açaraq bildirdi ki, ümumilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə tikinti-quruculuq işlərinə xüsusi diqqət yetirmiş, inşaat işçilərinin əməyini daim yüksək qiymətləndirmişdir. Ölkəmizi dünyanın ən abad, ən müasir yaşayış məkanlarından birinə çevrilməsi Respublika Prezidenti İlham Əliyevin də fəaliyyətində prioritet yer tutur. İşğaldan azad olunmuş torpaqlarımız da yaxın günlərdə böyük tikinti meydanına çevriləcək. Bu da yeni iş yeri, yeni həmkarlar ittifaqı təşkilatı, yeni kollektiv müqavilələr deməkdir.**



Umud müəllim yeri gəlmişkən bildirdi ki, sahə Hİ-nin kollektiv müqavilələrin tərtib edilməsində böyük təcrübəsi var. Bu sənəd hazırlanarkən çalışırıq ki, onda əmək məhsuldarlığının yüksəldilməsi, stabil məşğulluq və əmək bazasının səmərəli infrastrukturunun inkişafı, iş yerlərinin təhlükəsizliyi, işçilərin və onların ailələrinin rifahının artırılması və sair öz əksini tapsın.

Onu da qeyd etdi ki, müqavilələr bağlanarkən həmkarlar ittifaqının mövqeyini əks etdirən tədbirlərdən istifadə olunur. İdarə və təşkilatların strukturundan, iqtisadi vəziyyətlərindən asılı olaraq əlavə müddəalar tətbiq edilir.

O, çıxışını tövsiyələrlə yekunlaşdırdı.

**Seminarda "AKKORD" Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Seyfəddin Ağayevin, "Holçim-Azərbaycan" ASC Həmkarlar İttifaqı Komitəsinin sədri Mübariz Məmmədovun çıxışları dinlənildi.**

**Sevinc HÜSEYNOVA,
"İnşaat-İş" Hİ-nin sosial sığorta məsələləri üzrə mütəxəssisi**

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ
WWW.ULFET-AZ.COM


# Ehtiramla yola salındı



**Bir neçə gün əvvəl Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsində üzv təşkilat olan "Bakinski Raboçiy" qəzetinin sabiq əməkdaşı Zeytulla Cabbarovla görüş keçirildi. Şirniyyat süfrəsi arxasında təşkil olunmuş görüşdə Respublika Komitəsinin sədri Məhəmmədəli Salmanov çıxış etdi.**

Dedi ki, Zeytulla müəllim Azərbaycan jurnalistikasında xüsusi xidmətləri və imici olan şəxslərdəndir. 75 yaşlı bu insan rayonlarda, paytaxtda mühüm vəzifələrdə çalışmış, 1987-ci ildən taleyini "Bakinski raboçiy" qəzetinə bağlamışdır. 2001-ci ildə kollektivin təşəbbüsü ilə qəzetin həmkarlar ittifaqı komitəsinin sədri seçilmişdir. İstər jurnalist, istərsə də həmkarlar işçisi kimi, daim prinsipiallıq nümayiş etdirmişdir. Bu gün biz bu gözəl insanı təqaüdə yola salırıq. Lakin biz onunla həmişəlik ayrılmırıq. Gələcəkdə də Zeytulla müəllimin müdrik məsləhətlərindən bəhrələnəcək, qayğısına qalacağıq.

Z.Cabbarov belə bir diqqətdən riqqətə gəldiyini etiraf etdi. Həmkarlar ittifaqının ona göstərdiyi isti münasibəti heç vaxt unutmayacağını söylədi.

**Görüşdə Zeytulla müəllimlə birlikdə iştirak edən həyat yoldaşı Zahirə xanım da dəvət üçün Respublika Komitəsinin əməkdaşlarına minnətdarlığını bildirdi.**

# "Təcrübəçi layihəsi" özünü doğruldur



**"Bakı Metropoliteni" QSC-nin Təlim-tədris mərkəzində kadr hazırlığı, ixtisasartırma, ixtisas seçimi, peşə səviyyəsinin təkmilləşdirilməsi, tədris proseslərinin təşkili baxımından əhəmiyyətli tədbirlər və layihələr davamlı olaraq həyata keçirilir. Cəmiyyətin sədri Zaur Hüseynovun təşəbbüsü ilə başlanılmış "Təcrübəçi layihəsi" artıq bir neçə aydır ki, metropolitenin mürəkkəb xüsusiyyətləri nəzərə alınmaqla, ali təhsilli kadrların mütəxəssis kimi yetişdirilməsinə xidmət göstərir. Ötən müddət ərzində üç müxtəlif dövrdə təcrübəçilərdən ibarət qruplardan metropolitenin müxtəlif sahələrində mütəxəssislərin işlə təmin edilməsi və onların sınaq müddətində özünü doğrultması əldə edilmiş nailiyyətlərin göstəricisidir. Artıq dördüncü qrup da kursu başa vurub.**

Bu layihə çərçivəsində hazırlanmış mütəxəssislərin sosial fəallığının artırılması, hər dörd qrup üzrə yeni işçilərin kollektivə uyğunlaşması baxımından "Bakı Metropoliteni" QSC-nin rəhbərliyi müxtəlif təşəbbüslər ilə gənclərə dəstək olur.

Bu dəfə "Bilgəh" sanatoriya-profilaktoriyası və istirahət zonasında Metropoliten İşçiləri Həmkarlar İttifaqı (MİHİ) ilə birlikdə "Təcrübəçi layihəsi"ndən işə qəbul edilmiş 21 gəncin stimullaşdırılması, onlara dəstəyin ifadəsi olaraq sosial fəallıqlarının artırılması, eləcə də asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə birgünlük maraqlı intellektual və əyləncəli tədbirlər proqramı həyata keçirilib.

**Cəmiyyətin və MİHİ rəhbərliyinin iştirakı ilə səhər saatlarından xüsusi ayrılmış avtobusla "Bilgəh" İstirahət Mərkəzinə gələn gənclər əvvəlcə burada yaradılmış şəraitlə tanış olublar. Daha sonra dörd komandanın iştirakı ilə breyn-rinq oyunu keçirilib. Gərgin zəka döyüşündə elektrik təchizatı xidmətinin işçisi Allahverdi Allahverdiyevin komandası qalib gəlib.**

Nahar fasiləsi və sərbəst saatdan sonra, eyni tərkibdə olmaqla, komandaların voleybol yarışı təşkil edilib. Bu mübarizədə də adıçəkilən komanda qalib gəlib.

Gün ərzində mənalı istirahətin təşkili məqsədilə gənclərin mərkəzdə dincələn və müalicə alan sakinlərlə maraqlı müzakirələri və fikir mübadiləsi aparılıb.

Günün sonunda keçirilən tədbirdə Səhmdar Cəmiyyətin sədr müavini Hidayət Məmmədov gənclərlə görüşərək onlara gələcək karyeralarında uğurlar diləyib, MİHİ-nin böyük dəstəyi, həmçinin təlim-tədris mərkəzində və istehsalat sahələrində yaradılmış şəraitlə formalaşmış zəngin ənənələrə uyğun olaraq, hər zaman perspektivli gənclərə dəstək olduğunu və "Təcrübəçi layihəsi" üzrə gənclərə böyük ümidlər bəslədiyini qeyd edib.

**Mərasim zamanı bütün iştirakçılar xüsusi sertifikatlar, "Bakı Metropoliteni" QSC-nin və MİHİ-nin hədiyyələri, həmçinin qaliblər xüsusi mükafatlarla təltif ediliblər.**

# Şəhidlik zirvəsinin fatehləri

## Şəhid Tərzan Qəhrəman oğlu Həşimov



**Tərzan Qəhrəman oğlu Həşimov 1989-cu il aprelin 13-də Lerik rayonu Bibihoni kəndində dünyaya gəlmişdir. 1995-2006-cı illərdə tam orta təhsil alan Tərzan 2007-ci ilin aprel ayında Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə hərbi xidmətə başlamışdır.**

Hərbiyə olan marağı onun hərbçi kimi formalaşmasında böyük rol oynamışdır. 2010-cu ilin mart ayında gizirlərin hazırlığı kursunu bitirmiş və gizir rütbəsi almışdır. 2010-cu ilin dekabr ayından isə Xüsusi Təyinatlı Qüvvələr (XTQ) kursunu keçərək, XTQ qrupunda kəşfiyyatçı vəzifəsinə təyin olunmuşdur. 2014-cü ildən isə "N" saylı hərbi hissənin xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunda kəşfiyyatçı vəzifəsində çalışmışdır.

**T.Həşimov aprel döyüşlərinin də iştirakçısı olmuşdur. O, döyüş müddətində xüsusi iradə göstərmiş və neytral zonadan döyüş zamanı həlak olan şəhidimizi çıxarmışdır.**

Tərzan sentyabrın 27-də Ermənistanın işğal etdiyi ərazilərimizin azad olunması üçün başlanan Vətən müharibəsində igidlik göstərmişdir. Cəbrayıl və Füzuli rayonlarının azad olunması uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına vuruşmuş, elə Füzuli uğrunda gedən döyüşlərdə Şəhidlik zirvəsinə ucalmışdır.

**Tərzan Qəhrəman oğlu Həşimov "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı, ölümündən sonra isə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

## Şəhid Elzamin Eyvaz oğlu Tağıyev



**Elzamin Eyvaz oğlu Tağıyev 1992-ci il avqustun 11-də Xocavənd rayonunun Qaradağlı kəndində dünyaya göz açmışdır. İlk təhsilini Xocavənd rayon Salakətin kənd tam orta məktəbində almışdır. Məktəbi bitirdikdən sonra - 2010-cu ildə həqiqi hərbi xidmətə yollanmışdır. Hərbi xidmətdən qayıtdıqdan bir müddət sonra hərbçi olmağa qərar verir. Və o, müddətdən artıq xidmət edən (MAXE) hərbi qulluqçu kimi fəaliyyətə başlayır.**

Elzamin sentyabrın 27-də başlayan Vətən müharibəsinə qatılır və Füzulinin, Cəbrayılın, Hadrutun və Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edir. O, noyabrın 9-da Şuşa uğrunda gedən döyüşlərdə şəhid olub.

**Elzamin Eyvaz oğlu Tağıyev Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

**Aliyə SƏMƏDOVA**

# "Delta" ştammı daha yoluxucudur

**""Delta" ştammı ilkin koronavirusdan iki dəfə daha yoluxucudur".**

**Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş elmi işçisi Sumiya Svaminatan deyib.**

Onun sözlərinə görə, "delta" ştammı artıq 85-dən çox ölkədə mövcuddur. "O, ilkin SARS-CoV-2 virusundan ən azı iki dəfə daha yoluxucudur", - deyə Svaminatan Sumiya tviterdə yazıb.

Alim qeyd edib ki, bu cür ştammı olan insan "iki, dörd, altı və hətta səkkiz nəfər"i xəstəliyə yoluxdura bilər", - bu səbəbdən bütün ailə tərəfindən xəstəliyə yoluxma daha geniş yayılıb.

O həmçinin dünyada vaksinlərin əksəriyyətinin, ən azından xəstəliyin ağır keçməsinin qarşısını almaqda səmərəli olduğunu bildirib. Mütəxəssis əlavə edib ki, vaksinasiyanın vacibliyinə baxmayaraq, insanlar maska və əlcək taxmağa davam etməli və sosial məsafəni qorumalıdırlar.

**ÜST-ün məlumatına görə, koronavirusun Hindistan variantı (B.1.617) oktyabr ayında aşkar edilib. Daha sonra üç alt növ müəyyən edilib: B.1.617.1, B.1.617.2 ("delta") və B.1.617.3. Onlar bir neçə mutasiya ilə fərqlənirlər. Alimləri ən çox "delta" ştammı narahat edir. Onun mutasiyası davam edir, bu yaxınlarda "delta-plus" (B.1.617.2.1) ştammının yarandığı da məlum olub.**

# Hüquq məsləhətxanası

**Deyirlər ki, internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə məhkəməyə müraciət edilə bilər. Bu hansı qaydada həyata keçirilir?**

**Nüşabə ƏSGƏROVA, Gəncə şəhəri.**

- Ölkə Prezidentinin "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 22 yanvar 2000-ci il tarixli, 265 nömrəli Fərmanına əsasən, bu müraciəti Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi həyata keçirir. Nazirlik internet informasiya ehtiyatında "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi hallarını müəyyən etdikdə, internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması üçün məhkəməyə müraciət edir.

İnternet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə ərizə nazirliyin yerləşdiyi yer üzrə verilir.

Ərizədə internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması üçün qanunda nəzərdə tutulmuş əsaslar, internet informasiya ehtiyatı barədə məlumatlar, məhkəməyə qədər görülmüş tədbirlər qeyd olunmalı və ərizəçinin xahişi göstərilməlidir.

İnternet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə ərizəyə məhkəməyə təqdim olunduqdan sonra 5 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.

Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verir. İşdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur.

İnternet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması haqqında qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

**Əmək müqaviləsi bağlanarkən əmək kitabçası mütləq təqdim edilməlidirmi?**

**Gündüz VEYSƏLOV, Bakı şəhəri.**

- Əmək Məcəlləsinin 48-ci maddəsinə əsasən, əmək müqaviləsi bağlanarkən işçi əmək kitabçası təqdim edir.

"İşçilərin əmək kitabçasının forması və onun tətbiqi Qaydaları"nda deyilir ki, əmək kitabçası işçinin əmək fəaliyyətini və əmək stajını təsdiq edən əsas sənəddir.

Əmək kitabçası işəgötürən tərəfindən 5 gündən artıq işləyən bütün işçilər üçün əsas iş yerində açılır.

İşə qəbul olunan işçi əmək kitabçasını və şəxsiyyətini təsdiq edən sənədi işəgötürənə təqdim etməlidir. İlk dəfə əmək müqaviləsi bağlanarkən əmək kitabçası tələb edilmir.

Əmək kitabçasının tələb edilməməsi üçün istisnalar Əmək Məcəlləsinin 48-ci maddəsinin 3-cü hissəsində qeyd edilib. Belə ki, məcburi köçkün, onlara bərabər tutulan şəxs və ya qaçqın statusu olan, habelə Azərbaycan Respublikasında ilk dəfə əmək fəaliyyətinə başlayan işçilərlə, əcnəbilərlə və vətəndaşlığı olmayan şəxslərlə əmək kitabçası təqdim edilmədən əmək müqaviləsi bağlanıla bilər.

Qaydalarda göstərilən müddətdə işçiyə əmək kitabçasının açılmaması işəgötürənin cəzalanmasına səbəb olur.

İnzibati Xətalar Məcəlləsinin 192.7. maddəsinə əsasən, işəgötürən tərəfindən əmək qanunvericiliyində müəyyən edilmiş müddətdə işçiyə əmək kitabçasının açılmamasına görə

- vəzifəli şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil İşçiləri Azad HİRK-in rəhbərliyi və aparat işçiləri AHİK-in Zəhmətkeşlərin əməyinin və sosial-iqtisadi mənafelərinin müdafiəsi şöbəsinin müdiri Çingiz Tağıyevə bacısı

**SƏİDƏ xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təhsil İşçiləri Azad Hİ Beyləqan Rayon Komitəsinin sədri Tahir Həsənov sahə Hİ Gədəbəy Rayon Komitəsinin sədri

**SÜLEYMAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7693
Sifariş: 1225
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət